saxlayırlar. İlkinə doğmuş inəkləri bütün qaydalara əməl etməklə sağmaq lazımdır. Müəyyən olunmuşdur ki, südün yelindən çıxması süd vəzlərinin qıcıqlanmasına cavab olaraq heyvanın sinir və hormonal sistemlərinin iştirakı ilə baş verir. Bu təsirlər nə qədərdə intensiv olarsa, bir o qədər südvermə fəal inkişaf edir. **Normaya görə, südvermənin muddəti 5-6 dəqiqə təşkil edir.**

**Bu vaxt ərzində inəyi təmiz sağmaq lazımdır. Əllə sağmağın ən yaxşı üsulu yumruqla sağmaqdır.** Bu halda əmcəyin yuxarı hissəsi əvvəlcə əlin baş və göstərici bağmaqları, sonra isə digər barmaqları növbə ilə sıxılaraq südü əmcəkdən çıxarır. Bu zaman dəqiqədə 80-140 dəfə sıxmaq lazımdır, «Barmaqla» sağım fizioloji cəhətdən düzgün deyil, çünki əmcək kanalının zədələnməsinə səbəb olur. Südün gəlməsini yaxşılaşdırmaqdan ötrü sağımdan əvvəl inəyin yelinini isti su (40°C) ilə yuyur, təmiz quru dəsmal ilə qurulayır və eyni zamanda yüngül massaj edirlər. Sağın bacardıqca tez və südvermə qurtarana qədər fasiləsiz aparılmalıdır. Sağın zamanı sakitliyə riayət olunmalı, inəklə mehriban rəftar edilməlidir. Beləliklə, yüksək məhsuldar valideynlərdən dişi dana seçimi və onların yaxşı bəslənməsi laktasiya ərzində tam qiymətli yemləmə zamanı tərkibində 3,8 - 4,0% yağ, 3,2 3,3% zülal olan 6000 kq və daha çox süd verməyə qabil inəklər əldə etməyə imkan verir.

**Niftulla Əzizov,**
*zootexnik*

İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi Layihəsi

"Masallı Regional Məsləhət Mərkəzinin fəaliyyəti"

Layihə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən maliyyələşdirilir.

İcraçı: Aqro-Məsləhət Qeyri Hökumət Təşkilatı

Ünvan: Bakı, C.Cabbarlı 40.
Tel/faks 498188, 5967018.

"Kösər" mətbəəsində çap olunmuşdur. Sayı 5000.

# İnəklərin süd məhsuldarlığını necə artırmaq olar? (II)



Bakı-2010

**Düzgün yemləyin. Yadda saxlamaq lazımdır ki, buzovların ən tez boy atması ömürün birinci ili ərzində baş verir. İkinci ildə onlar nisbətən yavaş, üçüncüdə daha yavaş böyüyürlər, yəni yaş artdıqca diri çəki artımı azalır.** Odur ki, iri, yüksək məhsuldar, sağlam və yaxşı boy-buxunlu inək yetişdirmək üçün buzovları onların ömrünün birinci və ikinci ilində yaxşı yemləmək lazımdır. Bu dövrdə buzovdan inək formalaşır və əgər o, zəif qidalandırılarsa, onda nöqsanlı bədən quruluşu inkişaf edir (dar döş, iti bel, sümüklü dal və s.), bunu isə sonrakı illərdə heç bir yemləmə ilə düzəltmək mümkün olmur.

**6-aylıqdan yuxarı yaşda olan buzovların bəslənməsində əsas vəzifə həzm, südəmələ gətirmə orqanlarının, skeletin və skelet əzələlərinin yaxşı inkişafına nail olmaqdan ibarətdir.** Buzovların sulu-şirəli, qaba və yaşıl yemlərlə yemləndirilməsi, qüvvəli yemlərdən optimal miqdarda istifadə olunması onlarda mədə-bağırsaq sisteminin güclü inkişafına səbəb olur. Bu həmçinin piylənmənin və erkən cinsiyyət yetişkənliyinin qarşısını almaqla, yüksək məhsuldar südlük malın keyfiyyətlərini formalaşdırır. **6-aylıqdan yuxarı yaşda buzovların yem payları quruluşuna görə tədricən inəklərin yem paylarına yaxınlaşdırılır: onlarda qüvvəli yemlərin payı azaldılır, qaba və sulu-şirəli yemlərin payları isə artırılır.** Tövlə şəraitində əsas yem taxıl-paxlalı quru otu və yaxşı keyfiyyətli şirəli yemlər olmalıdır. İşkənbə həzminin yaxşılaşdırılması üçün az miqdarda yem çuğunduru vermək məsləhətdir. 9-10-aylıq yaşdan başlayaraq buzovların yem payında quru otun 30-40%-ni yaxşı yazlıq küləş ilə (vələmir yaxud arpa) əvəz etmək olar. **Qüvvəli yemləri qarışıq yemlər şəklində, qalan yemləri təbii halda yedizdirmək daha yaxşıdır.** Tövlə şəraitində yem payı buzovun hər 100 kq diri çəkisinə görə hesablanır. Yəni hər 100 kq diri çəkiyə görə buzova 1-2 kq quru ot, 4-5 kq silos, 2-3 kq kökümeyvəlilər və 0,5-0,75 kq qüvvəliyemlər verilməlidir. Yay dövründə buzovların yem payının əsasını yaşıl yemlər təşkil edir. Qüvvəli yemlər isə yem payında həzm olunan proteini balanslaşdırmaq üçün verilir.

**İlkinə doğmuş inək. 18-19-aylıq yaşda, diri çəkisi 380-400 kq olan dişi danaları mayalandırmaq məsləhət görülür.** Düyələrin mayalandırmadan əvvəlki və sonrakı düyələrin yemləndirilməsində əhəmiyyətli fərq yoxdur. Lakin onların yemləndirilməsini mayalandırmadan 5-6 ay sonra yaxşılaşdırmaq tələb olunur, çünki, balanın güclü böyüməsi və süd vəzilərinin inkişafı bu vaxtdan başlayır.

**Doğmuş düyə ilkinə doğmuş inək adlanır. İlkinə doğan inəkləri daha yaxşı yemləmək lazımdır. Çünki onlar həm süd əmələ gətirir, həm də özlərinin böyümələrinə qida maddələri sərf edir.** Axı inəklərin böyüməsi 5 yaşına qədər davam edir. İlkinə doğmuş inəklərə bol süd verməsi üçün avans yemləmə tətbiq olunur. Bu o deməkdir ki, birinci yem payı (doğumdan 10-12 gün sonra) faktiki süd sağımına görə yox, 2-4 kq artıma görə tərtib edilir. Yem payına əlavəni, əsasən qüvvəli yemlər və şirəli yemlər hesabına, inək südünü artırana qədər